ZƏFƏR YÜRÜŞÜNDƏN 5 İL ÖTÜR...

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

## *Qarabağa qayıdış: xatirələr, duyğular, arzular*



*Elçin MEHRƏLİYEV,*
*yazıçı-publisist,*
*filologiya elmləri doktoru*

### 6. ERMƏNİ, SƏN NƏ KİMİ VARLIQSAN?

Ermənilərin 1988-ci ilin iyununda Qarabağın bir parçası kimi Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi barədə iddia qaldırıb qərar çıxarmasından və bu niyyətlə qana-qırğına sürükləyən təxribatlar törətməyə başlamasından belə məlum oldu ki, onların "Böyük Ermənistan" planının növbəti hədəfi Qarabağdır. Əslində, həmin vaxta qədər də ermənilər fürsət tapan kimi, Dağlıq Qarabağ məsələsini ortaya atmış, "qədim torpaqlarımız" adı ilə ələ keçirib Ermənistana birləşdirməyə cəhd göstərmişdilər. Hansı ki, elə Ermənistan SSR Elmlər Akademiyasının ilk prezidenti İ.Orbelinin elmi qənaəti həmin "qədimliyi" puça çıxarırdı: "İndiki Dağlıq Qarabağ orta əsrlər Albaniyasının bir hissəsi olmuş, sonradan erməni feodalları tərəfindən zəbt edilmişdir". Bizim görkəmli şərqşünas alimimiz, akademik Ziya Bünyadov isə ermənilərin albanların yalnız torpaqlarını və yazılı abidələrini deyil, həm də 52 hərfdən ibarət əlifbasını da mənimsədiyini yazırdı. Yaxud ermənilərin Qafqaza köçürülməsindən qabaqkı dövrə dair tarixi sənədlərdən, o cümlədən, Rusiya imperatoru I Aleksandrın 1806-cı ildə imzaladığı Qarabağ xanlığının Rusiya ilə könüllü surətdə birləşməsi və onun hökmdarı İbrahim xanın suveren hüquqları haqqındakı dövlət fərmanından məlum olur ki, Qarabağ tarixən Azərbaycan xalqına məxsusdur və İbrahim xanın bu vilayətin hakimiyyət taxtında suveren hüququ nəsildən-nəsilə, dünya durduqca təsdiq edilir. Əsası 1747-ci ildə İbrahim xanın atası Pənahəli xan tərəfindən qoyulmuş Qarabağ xanlığının tarixi və coğrafiyası haqqında məşhur "Qarabağnamələr"də kifayət qədər bilgi verilir. Başqa bir tarixi fakt: ermənilər 1978-ci ildə 150 il əvvəl İrandan köçürülərək Dağlıq Qarabağda yerləşdirilmələri şərəfinə üzərinə "Marağa - 150" yazılmış abidə ucaltmış, lakin Dağlıq Qarabağ münaqişəsi başlanarkən həmin abidəni dağıdıb tarixi izi itirməyə çalışmışlar. Həmin abidənin foto-şəkilləri müxtəlif ensiklopediyalarda və nəşrlərdə bu gün də qalmaqdadır. Ümumiyyətlə, "qədimlik" söhbəti ermənilər üçün bir bəhanə idi, onların Dağlıq Qarabağ ərazisində yaşayan azərbaycanlıları müxtəlif yollarla sıxışdırıb saylarını azaltmaq, torpaqlarını ən müxtəlif hiylə və kələklərlə ələ keçirmək planları həmişə işlək olmuşdur. Sadəcə olaraq, ermənilərin dağlı-aranlı Qarabağı Azərbaycandan qopartmaq uğrunda mübarizəsi, tarixi şəraitə uyğun olaraq, qabarma və çəkilmələrlə müşahidə olunmuşdur. Yaxın keçmişimizdən bir neçə məqamı xatırladaq.

Birinci məqam: XX əsrin əvvəlləri. 1905-1906-cı illərdə törədilən erməni-müsəlman davaları... Şuşanın top atəşləri ilə dağıdılması... Azərbaycanlı əhaliyə qarşı törədilən soyqırımlar... Lakin ermənilər rus general və əsgərlərinin köməyinə baxmayaraq qalib gələ bilmədilər. Əslən şuşalı, alovlu publisist Əhməd bəy Ağaoğlunun yaratdığı və öz sıralarında minlərlə cəsur azərbaycanlını birləşdirən "Difahi" təşkilatı ermənilərin və onların havadarlarının niyyətini gözündə qoydu.

İkinci məqam: 1920-ci illər. XI Qırmızı ordunun Azərbaycana yürüşü. Yerlərdə, o cümlədən Qarabağda Şura hökumətinə qarşı üsyanlar... 4 iyul 1921 -ci ildə keçirilən RK (b) P MK-nın Qafqaz bürosunun iclasında Qarabağ məsələsi müzakirə olunur.

***Protokoldan:***

a).Qarabağı Azərbaycanın tərkibində saxlamaq. Lehinə səs verənlər: Nərimanov, Maxaradze, Nazaretyan. Əleyhinə: Orconikidze, Myasnikov, Kirov, Fiqatner.

b).Qarabağın dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək. Lehinə: Orconikidze, Myasnikov, Kirov, Fiqatner .

v) Yoldaş Nərimanovun bəyanatı: Qarabağ məsələsinin Azərbaycan üçün mühüm əhəmiyyət daşıdığını nəzərə alaraq onun son həllini RKP MK -ya keçirməyi vacib hesab edirəm .

Qərar: Qarabağı Ermənistan SSR-in tərkibinə daxil etmək haqqındakı məsələ ciddi fikir ayrılığına səbəb olduğuna görə RKP MK Qafqaz bürosu onun son həllini RKP MK-ya keçirməyi vacib sayır.

Nərimanov bütün sərtliyi ilə Stalinə və Orconikidzeyə müraciət edir: "Mən yol vermərəm ki, Qarabağ erməni tapdağı altında qalsın. Bu gecə mən ya Qarabağı qaytaracağam, ya da məsələni başqa cür həll edəcəyəm".

Görünür ki, o gecə Nərimanova Leninlə əlaqə yaratmaq və onun razılığını almaq müyəssər olub, yoxsa ertəsi gün Qafqaz bürosu başqa qərar çıxarmazdı.

a).Protokoldan: Dinlənildi: Qarabağ haqqında ötən Plenumda çıxarılmış qərarın nəzərdən keçirilməsi haqqında Orconokidze və Narazetyanın qaldırdığı məsələ. Qərara alındı: müsəlmanlar və ermənilər arasında milli barışığın vacibliyini və Dağlıq Qarabağın və Aran Qarabağın iqtisadiyyatının Azərbaycanla bağlılığını, daimi əlaqəsini nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlanılsın, ona Muxtar Vilayətin tərkibinə daxil olan inzibati mərkəzi Şuşa şəhəri olmaqla geniş vilayət muxtariyyəti verilsin.

b). Səs verdilər: Lehinə 4, əleyhinə 3"

Nəriman Nərimanov 19 mart 1925 -ci ildə, Moskvada 55 yaşında ürək çatışmazlığından ( bəzi ehtimallara görə zəhərlənərək ) vəfat etdi.

Üçüncü məqam: 1945-ci ilin payızında Ermənistan KP MK-nın katibi A.Arutyunov ÜİK (b)R MK-nın müzakirəsinə Dağlıq Qarabağ Vilayətinin Ermənistana verilməsi barədə təklif-layihə təqdim edir. Xüsusi olaraq bildirilir ki, Dağlıq Qarabağın əhalisinin əksəriyyəti ermənilərdən ibarət olduğu üçün həmin ərazi Ermənistana verilməlidir. Bu zaman ÜİK (b) R katibliyi Azərbaycan KP MK katibl M.C.Bağırovun rəyini öyrənmək üçün ona müraciət edir. M.C.Bağırov müzakirəyə çıxarılmış təklif-layihədəki dəlilləri alt-üst edir və bildirir ki, əgər ermənilərin əsas götürdükləri səbəblərə görə Yuxarı Qarabağın Ermənistana verilməsi məqbul sayılırsa, nə olar, qoy DQMV-nin Şuşa rayonu istisna olunmaqla qalan ərazisi Ermənistana verilsin. Ancaq bir şərtlə. Elə bu arqumentə-amilə əsaslanaraq, azərbaycanlıların çoxluq təşkil etdiyi və yaşadığı tarixi Zəngəzur və Göyçə mahalları, habelə vaxtilə Gürcüstana və Dağıstana verilmiş Azərbaycan torpaqları geri qaytarılsın. Belə sərt və qəti cavabdan sonra müzakirə dayandırılır.

Dördüncü məqam: Rus yazıçı-publisisti Yuri Pompeyevin Dağlıq Qarabağda və onun ətrafında baş verən qanlı hadisələrdən bəhs edən "Əzablı günlər" kitabının bir parçasını tərcümə edərək diqqətə çatdırırıq:

"Mir Cəfər Bağırovdan tutmuş Ayaz Mütəllibova qədər Azərbaycan xalqının taleyini həll edən bir çox rəhbərlərlə işləmiş, onlarla qarşılıqlı etimad əsasında söhbətlər etmiş C.Mehdiyev Ermənistanın siyasi vasitələrdən istifadə edərək DQMV-ni özünə birləşdirmək və Qarabağ torpağına olan iddialarını hüquqi müstəvidə sübut etmək üçün həyata keçirdikləri beş cəhdini sadalayır...

1953-cü ilin dekabr ayında gənc Mehdiyev həyatını təhlükəyə ataraq Kuybışev şəhərində M.C.Bağırovu ziyarət etmişdi. C.Mehdiyevin əlində Azərbaycanda hətta bu gün də haqqında çox az adamın bildiyi tarixi sənədlər var idi. Onların üzərində "Tam məxfi" və "Xüsusi qovluq" qrifi həkk olunmuşdu. Görəsən respublikadan qovulduqdan sonra o vaxtlar "Kuybışevneft"in rəis müavini vəzifəsində işləyən Mir Cəfər Bağırov 10 dekabr 1953-cü il tarixində hansı sənədləri seyfindən çıxarıb bu gənc komsomola göstərmişdi?

Məsələn, SSRİ-nin müdafiə imkanlarını artırmaq məqsədi ilə azərbaycanlıların Qazaxıstan və Orta Asiyaya köçürülməsi məqsədi ilə Dövlət Müdafiə Komitəsinin 1942-ci ilin yanvar ayında qəbul etdiyi qərarın layihəsi (2 səhifədə). Aşağıda İ.Stalinin imzası ilə. Üzərində eyni qrif həkk olunmuş SSRİ Ali Soveti Rəyasət Heyətinin SSRİ Konstitusiyasının müvafiq maddələrini və Azərbaycan və Ermənistan Ali Sovetlərinin razılığını rəhbər tutaraq Azərbaycan SSR-nın DQMV-nın Ermənistan SSR-yə verilməsi haqqında 1948-ci ilin mart ayında qəbul etdiyi Qərarının layihəsi. Layihə iki səhifədən ibarət idi, aşağıda N.Şvernikin imzası vardı. Bura Azərbaycanın sərhədlərinin dəyişdirilməsi ilə bağlı coğrafi xəritə də əlavə edilmişdi.

O vaxtlar Bakı şəhər komsomol idarəsində fəhlə-gənclər şöbəsinin müdir müavini vəzifəsində işləyən C.Mehdiyev Ermənistandan deportasiya olunmuş gənclərin şikayət və xahişləri, işlə təmin olunma məsələləri ilə məşğul olurdu.

Beşinci məqam: Yenə Yuri Pompeyevin "Əzablı günlər"indən bir parçanı təqdim edirik:

"...Hələ Xruşovun dövründə də Moskvada hakimiyyətin dəstəyi ilə Qarabağ uğrunda mübarizə gedirdi. 1960-cü ilin noyabrında (başqa bir mənbədə bu tarix "1964-cü ilin yanvarı" kimi göstərilir -red.) yanvarında C.Mehdiyev Sov.İKP MK Siyasi Bürosunda Anastas Mikoyanın təşəbbüsü ilə keçirilməli olan və DQMV-nın qonşu respublikaya verilməsi ilə bağlı məsələnin rəsmi müzakirələri üçün sənədlərin hazırlanmasında iştirak edirdi. Cavid Mehdiyev deyir:

"Bizim mövqeyimizi müdafiə etmək N.M.Haciyevə həvalə edilmişdi. O, buna qədər Sov.İKP MK-da işləyirdi. A.Mikoyanın və partiyanın ideoloqu M.Suslovun dəstəyi ilə Ermənistan rəhbərliyinin, Moskvadakı partiya iearxiyasının bütün strukturlarına soxulmuş nümayəndələrinin, xaricdəki diasporalarının bütün cəhdlərinə baxmayaraq, Dağlıq Qarabağı bu dəfə də necə müdafiə etdiklərini onun öz sözlərindən ətraflı bilirəm. Əgər Hacıyevin böyük hörmətlə haqqında danışdığı N.S.Xruşşov olmasaydı bu bölgəni itirə bilərdik. Sov.İKP MK Siyasi Bürosunun iclasından əvvəl keçirilmiş müzakirədə o, ermənilərin iddiasını qətiyyətlə rədd etmiş, hazırlanmış layihə qərarını Hacıyevin məruzəsindən sonra kənara ataraq belə demişdi: "Bu məsələ bir daha qaldırılmasın...".

Digər etibarlı mənbələrə görə isə Xruşov əsəbi halda Mikoyana demişdir: "Mən elə bu gün DQMV-da yaşayan ermənilərin Ermənistana bir sutka ərzində köçürülməsi üçün 12 min hərbi yük maşını göndərə bilərəm."

***(Davamı 3-cü səhifədə)***

*(Əvvəli 2-ci səhifədə)*

Altıncı məqam: 1988-1990-cı illər:.. XX əsrin 80-ci illərində erməni iddiası daha da gücləndi və erməni millətçiləri (Z.Balayan, P.Qazaryan, S.Xanzadyan, B.Ulubabayan, S.Kaputikyan, B.Hambarsumyan, A.Aqanbekyan və b.) daha böyük bir qüvvə ilə Azərbaycana qarşı qərəzli təbliğata başlayaraq öz "əsərlərində" Dağlıq Qarabağın, onun şəhər və rayonlarının tarixini saxtalaşdıraraq milli münaqişənin alovlanmasında müstəsna rol oynadılar. Şuşa-Topxana meşələrinə qəsd, Qarabağı özününkülləşdirmək çağırışları, 230 mindən artıq soydaşımızın qarət edilərək, döyülərək, qətlə yetirilərək Ermənistandakı ata-baba yurdlarından qovulması Bakıda kütləvi etirazlar doğurdu.

Azərbaycanda başlamış kütləvi etirazların imperiya siyasəti əleyhinə xalq hərəkatı səviyyəsinə yüksəldiyini görən M.S.Qorbaçov komandası Bakıda əliyalın nümayişçilərə qarşı kütləvi qırğın törətdi. Yanvarın 19-dan 20-nə keçən gecə törədilən qətliamı zamanı 131 nəfər həlak oldu, 744 nəfər yaralənə bilməzdi. Həm də ona görə ki, Ermənistan dövləti yarandığı gündən hərbiləşdirilmiş terrorçu erməni siyasi partiyası "Daşnaksütyun"un ideya və tələblərini yerinə yetirməyə məhkum idi. Bu dövlət heç vaxt müstəqil olmayıb, qatı daşnakların, o cümlədən kilsə keşişlərinin əlində bir alət - icraçı bir qurum olaraq fəaliyyət göstərib. "Daşnaksütyun" isə heyvani qəddarlığı və sonsuz acgözlüyü təlqin edir. Ermənilərə tövsiyyə edir ki, körpə uşağa, qadına, qocaya baxmadan müsəlmanları kütləvi surətdə qətlə yetirsinlər, müsəlman kəndlərini yandırsınlar, ermənilərin tərk etdiyi evləri yandırıb bunu dünyaynın hər yerində müsəlmanların adına yazsınlar. Buna görə də daşnak Ermənistanın məqsədi, niyyəti də konkret deyil, "Böyük Ermənistan" və buna bənzər mifik ideyalar, şüarlar bu dövlətin getdikcə artan heyvani tamah və iştahını ifadə edə bilmir, daha böyüyünü, daha yağlısını əldə edib qanlı dişlərinin altına salmaq ehtirası anlamına isə uyğun gəlir.

Terrorçu Ermənistan dövləti, deməkolar ki, elə "Daşnaksütyun" deməkdir. Başqa sözlə, terrorçu Ermənistan isə ondan ibarətdir ki, soyqırım günü hesab edilən aprelin 24-də İstanbulda və digər şəhərlərdə türklərə qarşı xəyanət edən erməni təşkilatlarının təcili olaraq bağlanması, onların rəhbərlərinin həbs edilməsi, sənədlərin ələ keçirilməsi haqqında daxili işlər naziri əmr vermiş və həmin əmrə müvafiq olaraq 2345 erməni həbs edilmişdir. Heç şübhəsiz ki, əmrin icrasına mane olan, müqavimət göstərən erməni silahlı birləşmələrinin tərksilah edilməsi, yaxud məhv edilməsi halları da baş vermişdir. Tarixçi və yazıçı Casti Makkartinin dediyi kimi, hər iki tərəf atəş açmış, hər iki tərəfdən qırılanlar olmuşdur.

Bəs necə olmalı idi? Ermənilər 1905-1907-ci illərdə Bakıda, Qarabağda, Tiflisdə, .İrəvanda, Naxçıvanda törətdikləri kütləvi qırğınlar silsiləsini 10 il sonra Türkiyədə davam etdirirdilər. Castin Makkartinin hesablamalarına görə, Birinci Dünya Müharibəsi zamanı rus və erməni hərbi birləşmələrinin Şərqi Anadolunu işğalı nəticəsində həmin ərazidən 800 min nəfər, Qafqazdan isə 400 min nəfər müsəlman qaçqın düşmüş, Van, Bitlis, Muş, dı, maarif və mədəniyyət müəssisələri, mətbəə, teatr, məktəb, kitabxana və s. od vurularaq yandırıldı".

Əhməd Təbrizi tarixi sənədlərin dili ilə belə yazır: "Andronikin dəstələri 1918-ci il sentyabrın axırında Zəngəzurun azərbaycanlı əhalisini qırmışlar. Dinc əhalinin kütləvi şəkildə öldürülməsi 1918-ci ilin noyabr ayında da davam etdirilmişdir. Evsiz-eşiksiz qalan qaçqınlar erməni quldurlarının əlindən meşələrdə, bağlarda gizlənmiş, müxtəlif guşələrə axışmışlar. Vahiməyə düşən qaçqınların bir qismi İrana qaçmağa məcbur olub. Qadın və uşaqların çoxu Araz çayında boğulmuşlar. Ermənilər müsəlmanların yüz milyonlarla, bəlkə də milyard manatlıq əmlakını ələ keçirmişlər". Andronik Ozanyan 20 minlik təpədən dırnağadək silahlanmış daşnak ordusu ilə təkcə Zəngəzurda yox, digər müsəlmanlar yaşayan ərazilərdə də kütləvi qırğınlar törətmiş, 35 min günahsız müsəlmanı vəhşicəsinə, insanlığa sığmayan üsullarla qətlə yetirmişdir.

M.Ə.Rəsulzadə "Açıq söz" qəzetində erməni vandalizmi, Andronikin qəddarlığı haqqında məqalələr dərc et-

# MƏN, MƏNİM QƏHRƏMANIM VƏ YURDUM

landı, 400 nəfər həbs edildi, 4 nəfər itkin düşdü. Ölənlər arasında dinc nümayişçilərlə yanaşı, şəhərin küçələrinə yaylım atəşləri zamanı "təsadüfi güllələrin" qurbanı olan qadınlar, uşaqlar və qocalar da vardı.

20 Yanvar faciəsi erməni-daşnak və rus-bolşevik sövdələşmələrinin mahiyyətinə yenidən işıq saldı, 70 illik sovetlər dönəminin qatı dumanını dağıdıb milli şüuru oyatdı. Biz gördük ki, rus xristian millətçiləri əsrin əvvəllərində olduğu kimi, sonlarında da erməni daşnakların yanında oldular, onları dəstəkləyib onlarla birlikdə qətliamlar törətdilər. Bu təhlükəni hiss və dərk edən Xalq şairi Cabiir Novruz yazırdı:

Kimin bəd əməli var,  
Tarix özü söyləsin.  
Burda şeytan əli var,  
Burda iblis hiyləsi.  
Döyür torpaqlarını  
Yenə dəmir çəkmələr.  
Müstəmləkə qanunu -  
Böl, parçala, hökm elə.  
Bölürlər bilə-bilə,  
İstəyirlər bu yurdu  
Yer üzündən silələr.

Beləliklə, Qarabağ münaqişəsi daha kəskin xarakter aldı və 30 il çəkdi. Bu savaş zamanı Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizi işğal edildi. İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi, 7 mindən çox sənaye və kənd təsərrüfatı obyekti, 180 min yaşayış binası, mindən çox təlim-tərbiyə müəssisəsi, 5 minə yaxın mədəni-maarif ocağı, 667 tibb müəssisəsi, 927 kitabxana, 464 tarixi abidə və muzey, 40 mindən artıq muzey eksponatı, 100-dən artıq arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası və s. erməni vandalları tərəfindən darmadağın edildi. Qarabağ savaşında 20 min nəfərədək Azərbaycan vətəndaşı həlak oldu, 100 min nəfərədək yaralandı, 4950 nəfər itkin düşdü, 4861 nəfər əsir və girov götürüldü, 1 milyon 200 min nəfər qaçqın və köçkünə çevrildi.

Terrorçu Ermənistan dövləti - Ermənistanın iştahı daha böyük idi və o həzm-rabedən keçirdikləri ilə kifayətdövləti deyəndə "Daşnaksütyun", "Daşnaksütyun" deyəndə isə terrorçu Ermənistan dövləti başa düşülür. Bu dövlət dünya dövlətləri sırasında öz yeri, çəkisi, imzası olan, beynəlxalq səviyyələrdə ərazi bütövlüyü tanınan və toxunulmazlıq prinsipləri qəbul edilən Türkiyə və Azərbaycan kimi müstəqil dövlətlərin əsaslarını dağıtmağa, hər iki ölkənin müsəlman xalqlarını sonuncu nəfərinədək qırıb axırına çıxmağı "planlaşdırıb". Mayevski yazır: "1896-cı ilin avqust ayında erməni daşnak komitələrinin buraxdığı intibahnamədə 12 bənddən ibarət proqram verilmişdir... İntibahnamə bu sözlərlə qurtarır: "Bilirik, biz öləcəyik!.. Lakin erməni millətinin iliyinədək işləmiş inqilab ruhu biz insan hüquqları əldə edənədək və tək bircə erməni də sağ qalanadək Sultan taxtını hədələməkdən usanmayacaqdır". Bir sözlə, türkə nifrət ermənilərə zaman-zaman güc amilindən istifadə etməyə rəvac verir və bu nifrət hissi erməni millətçiləri və onların qızışdırıcıları tərəfindən mütəmadi olaraq ovxarlanıb itilənir.

"Erməni soyqırımı" - ermənilərin türkə nifrəti guya ki, Osmanlı dövlətinin onları kütləvi surətdə qətlə yetirməsi hadisəsindən başlanır. Ermənilər inandırmağa çalışır ki, 1915-ci il aprelin 24-dən başlanan soyqırımında 2,5 milyondan çox erməni həlak olub və bütün ölkələrdə bu qondarma soyqırımı tanıtdırmaq istəyirlər. Lakin tarixi faktlar sübut edir ki, əvvəla, həmin dövrdə Türkiyədə yaşayan ermənilərin sayı milyon yarıma da çatmayıb, digər tərəfdən, onların düzüb-qoşub yaydıqları söz-söhbətin heç bir əsası yoxdur, əksinə, belə "qarabasma" bəyanatları təkzib edən rüsvayçı faktlar istənilən qədərdir. Əgər çar Rusiyasının, eləcə də Avropa xristian dövlətlərinin Şərqdə öz maraqlarını təmin etmək məqsədilə Türkiyəni zəiflədib parçalamaq niyyəti olmasaydı, "erməni məsələsi", "erməni soyqırımı" kimi məsələlər də meydana çıxmaz, qara kabus kimi Türkiyə və Cənubi Qafqaz üzərində dolaşmazdı.

Bəs əslində nə baş vermişdir? Bu da uzun bir hekayətdir. Qısaca məğzi Qars və İğdır vilayətlərində 1 milyondan artıq yerli əhali qətlə yetirilmişdir. Belədə sual ortaya çıxır: Soyqırım olmuşdur, ancaq kimə qarşı?

Ermənilərin 1918-1920-ci illərdə Bakıda, Şamaxıda, Qubada, Qarabağda, 1988-1992-ci illərdə isə Ermənistanın azərbaycanlılar yaşayan bölgələrində, Azərbaycanın Başlıbel, Qaradağlı, Meşəli, Ağdaban, Malıbəyli, Quşçular, Xocalı yaşayış massivlərində təkrar soyqırım cinayətləri törətməsi yuxarıdakı suala: "Bəli, soyqırım olmuşdur və olmaqda davam edir, özü də ermənilərə qarşı yox, türklərə və azərbaycan türklərinə qarşı" - cavabını verməyi qaçılmaz edir. Ermənilər Rusiya himayədarlığından istifadə etməklə 1918-ci ilin əvvəlindən etibarən kütləvi qırğınlara başlamış, Bakıdan Tiflisəcən məskunlaşan azərbaycanlıları qırıb Kür çayına, Qubadan Astarayadək yaşayanları isə Xəzər dənizinə tökməyi qərara almışdılar. Bakıda martın 31-də başlayan və üç gün davam edən qırğın nəticəsində məşhur "İsmaliyyə" sarayı yandırıldı, "Təzə pir" və sair məscidlər bombardman edildi, şəhidlərin sayı 15 min nəfərə çatdı, canlarını qurtara bilən müsəlmanlar ətraf kəndlərə və dağlara çəkildilər.

Dövrünün tanınmış ictimai-siyasi xadimi, görkəmli publisist Mirzə Bala Məmmədzadə Berlində "Qurtuluş" jurnalının mətbəəsində çap etdirdiyi "Milli Azərbaycan hərəkatı" adlı əsərində yazırdı: "Şaumyanın Tiflisdə inqilab təşəbbüsü nəticə verməmiş, gürcü əsgərini Seym əleyhinə qaldıra bilməmişdi. Bundan sonra Şaumyan öz qərargahını Bakıya köçürmüşdü. Burada şərait əlverişli idi. Şəhərdə cəbhələrdən qayıtmış 20-25 minlik silahlı erməi və rus əsgəri vardı. Bundan başqa, Xəzər dənizində rus hərbi donanması, Bakının neft mədənlərində rus və erməni fəhlələri vardı. Şaumyan bu qüvvələrə arxalanaraq martın 31-də qırğına başladı və üç gün davam edən, 15 min silahsız və günahsöz türkün ölümü ilə nəticələnən bu qırğın zamanı Bakı havadan, dənizdən və qurudan bombardman edildi, məscidlər dağıdıldirməklə onların necə bir vəhşi olduqlarını dünyaya tanıtdırmağa çalışırdı. Yazırdı: "Osmanlı ordusunda illərlə təlim keçmiş Andronik Ozanyan bir müddət əvvəl tabeliyində olan əsgərlərlə birlikdə ordudan qaçaraq Anadolu köylərinə, eyni zamanda Naxçıvan, Zəngəzur və başqa müsəlman yaşayan kəndlərə basqın edərək otuz beş mindən çox günahsız və silahsız insanları - südəmər uşaqlardan, hamilə qadınlardan tutmuş xəstələrə, yaşı ötmüş qocalara qədər insanlığa sığmayan üsullarla qətlə yetirmişdir. Andronik Ozanyan öz yırtıcı erməni əsgərləri ilə birlikdə hər köyü, kəndi yaxandan sonra türk əsgərlərinin yetişdiyini görüncə qaçır və başqa bir köyə saldırır. Pişikdən qorxan iyrənc siçovullar kimi heç vaxt türk əsgərləri ilə üzüzə gəlməyə cəsarət eləməsə də, hələ də dinc, silahsız müsəlman əhalini qətlə yetirməkdədir. Onu da qeyd edək ki, Andronik Ozanyanın burada da xeyli havadarları vardır. Xalqa bəyan eləmək lazımdır ki, həmin havadarlar özünü sinfi mübarizə aparan adam kimi qələmə veren Stepan Şaumyanın rəhbərliyi ilə silahlanmaqdadırlar və həm Bakı, həm Şamaxı, həm Quba, həm Salyan, həm Lənkəran, həm Gəncə, həm Qarabağ quberniyalarında, həm də başqa quberniyalarda yaşayan müsəlman əhaliyə qarşı hər an soyqırıma başlaya bilərlər".

Budur, bu da əsrin sonlarında baş vermiş Xocalı soyqırımı: ermənilər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 366-cı rus-sovet atıcı alayının yaxından köməyi ilə Xocalı qətliamını törətdilər - 10 min əhalisi olan bütöv bir şəhər amansız təcavüzə məruz qaldı. Xocalı soyqırımı nəticəsində 83-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla 613 nəfər qətlə yetirildi; 8 ailə tamamilə məhv edildi; 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi; düşmən gülləsindən 76-sı uşaq olmaqla 487 nəfər yaralandı; 1275 nəfər əsir götürüldü, onlardan 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

*(Davamı var)*